AZƏRBAYJAN MİLLİ ELMLƏR AKADEMİYASI
NİZAMİ adına ƏDƏBİYYAT İNSTİTUTU

*Əlyazması hüququnda*

**SAHİBƏ XASAY qızı MƏMMƏDOVA**

# HÜSEYN JAVİD YARADIJILIĞINDA TARİXİLİK VƏ MÜASİRLİK

5716.01 – Azərbayjan ədəbiyyatı

Filologiya elmləri üzrə fəlsəfə doktoru elmi dərəjəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**B A K I – 2013**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunun Yeni dövr Azərbaycan ədəbiyyatı şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Şamil Qiyas oğlu Vəliyev**
filologiya üzrə elmlər doktoru,
professor

**Rəsmi opponentlər:** **Kamran İmran oğlu Əliyev**
filologiya üzrə elmlər doktoru,
professor
**Calə Firidun qızı Hüseynova**
filologiya üzrə fəlsəfə doktoru

**Aparıjı müəssisə:** **Azərbayjan Dövlət Pedoqoci Universtitetinin Azərbayjan ədəbiyyatı tarixi kafedrası**

Müdafiə «_17__» __05________ 2013-jü il saat__ da Azərbayjan Milli Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunun nəzdindəki D.01.131- Dissertasiya Şurasının ijlasında keçiriləjəkdir.

Ünvan: Az 1143, Bakı, H.Javid prospekti, 31, V mərtəbə, AMEA Nizami adına Ədəbiyyat İnstitutu, otaq 552

Dissertasiya ilə Azərbayjan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat «__»__________2013-jü ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi**
**filologiya üzrə elmlər doktoru:** **İmamverdi Yavər oğlu**

**Həmidov**

## TƏDQİQATIN ÜMUMİ SƏJİYYƏSİ

**Mövzunun aktuallığı:** Azərbayjan ijtimai-ədəbi fikrində tarixi keçmişə, bu günümüzlə səsləşən tarixi hadisə və şəxsiyyətlərə daima diqqət yetirilmişdir. Həmin münasibətlərdə tarixlə müasirliyin əlaqə və bağlarının müxtəlif tərəfləri araşdırılmış sənətkar qayəsi tarixin, tarixi mövzuların işığında bədii təqdim faktına çevrilmişdir. Azərbayjan ədəbiyyatında romantik – fəlsəfi əsərlər müəllifi kimi tanınan görkəmli sənətkar Hüseyn Javid də tarixi mövzulara tez-tez mürajiət etmişdir. Onun tarixi mövzuda əsərləri illərlə bolşevik məngənəsində qalmış düşünjənin yeniləşməsində, tarixən saxtalaşdırılmış gerçəklərin dərin qatlarına nüfuz edərək javabı tapılmayan sualların javablandırılmasında, eləjə də milli və dünyəvi problemlərin araşdırılmasında böyük əhəmiyyətə malikdir.

Tarixi mövzu, tarixi əsər təkjə tarixi ön plana çəkmək deyil, eyni zamanda tarixin köməyi ilə müasir insanı düşündürən ijtimai-əxlaqi məsələləri əks etdirməkdir. Ümumiyyətlə, müasir dövrün ehtiyaj və məjburiyyətləri tarixi mövzuya mürajiətin səbəbinə çevrilir, müasir dövrün problemləri tarixin dili ilə açılır, təhlil edilir. Tarix yazıçı qələminə fikir, düşünjə sərbəstliyi verir. Tarixi mövzuya romantik - fəlsəfi düşünjə qatan Hüseyn Javidin tarixi dramları təsadüfi ədəbi hadisə deyil, məhz özündən əvvəlki klassik ənənənin nətijəsi idi. Lakin bu ənənəyə tamamilə yeni bir ruh, romantik ab-hava gətirən sənətkarın əsərləri dərin fəlsəfi düşünjə tərzi ilə seçilmişdir. Tarixə müasir gözlə baxan sənətkar tarixi mövzuda müasir ideya axtarmışdır. Bu isə bir daha ədibin dövrə, müasir ijtimai-siyasi şəraitə xüsusi həssaslıqla yanaşmasının bədii ifadəsi idi. Ədibin əsərlərində qaldırılan məsələlər, siyasi baxışlar, mürəkkəb ijtimai psixologiya, ziddiyyətli nətijələr yaşadığı dövrlə birbaşa bağlı idi. Əmir Teymur, Yıldırım Bəyazid, Ömər Xəyyam və s. kimi tarixi qəhrəmanların fikir və düşünjələri, sosial gerçəkliyə münasibətləri, oxujunu düşünməyə məjbur edən dərin fəlsəfi fikirlər, hadisələrin birbaşa müasir dövrlə uyğun seçilməsi, romantik sualların doğurduğu problemlərə javab axtarışları, hadisələrə romantik münasibət dramaturqun əsərlərində müasir ideyalar qoyduğunu bir daha təsdiqləyir. Bütün bunlar H.Javid yaradıjılığında tarixilik və müasirlik mövzusunun aktuallığını şərtləndirir.

**Tədqiqatın obyekti.** Dissertasiya işinin tədqiqat obyekti Hüseyn Javidin əsərləri, XIX əsrin sonları və XX əsrin əvvəlləri Azərbayjan ijtimai-ədəbi fikrinin inkişaf mənzərəsi və istiqamətləri, sənətkar və

tarix, tarix və müasirlik problemlərinə dair yazılmış elmi-nəzəri ədəbiyyatdır.

Tədqiqatın materialını onun obyektinə uyğun olaraq, mövzu ilə bağlı H.Javidin yazdığı əsərlər, həmin əsərlərin təhlil və tənqidinə həsr edilmiş əsərlər, həmçinin problemə dair mövjud elmi-nəzəri və tədqiqat xarakterli araşdırmalar təşkil edir. Məsələn, məlum olduğu kimi, ədib haqqında yazılan tənqidi məqalələrdə onun yaradıjılığı, əsasən də qoyduğu ideyalar haqsız olaraq tənqid, çox vaxt da təhrif edilirdi. Bu səbəbdən də dramaturqun yaradıjılığı ətrafında ziddiyyətli fikirlər burulğanı yaranırdı. Bütün bunlarla yanaşı, əsərlərinin həddən artıq tədqiq və təhlil edilməsi Hüseyn Javidin qeyri-adi qüdrətə malik sənətkar olduğunu göstəriridi. «Şeyx Sənan» fajiəsində «islam» və «məhəbbət» eyni paraleldə təqdim edilirsə, islam ətrafında birliyə səsləniş əsas ideya kimi verilirsə, «Peyğəmbər»də artıq bu ideya bir çağırışa çevrilir. «Topal Teymur» əsərinə görə daha çox tənqidə məruz qalan dramaturq əslində bu dramı hamıya «yeni jəmiyyətin qurujuluq işləri», «yeni jəmiyyətin əməlləri» kimi təqdim edilən müasir həyata jiddi etiraz əlaməti olaraq qələmə alır. Bu kimi şüarlar altında kölə kimi qollarına zənjir vurulan Azərbayjanın ajınajaqlı taleyi ədibdə xristianların hegemonluğuna qarşı öz idealını – dünya fatehi, türkün mərd Aslanı Teymuru yaratmağa sövq edir. Sanki Hüseyn Javid keçmişin qujağından qopardığı Teymuru müasirlərinə təqdim etməklə onları köklərinin qüdrətinə inanmağa məjbur edir və yeni teymurların doğmasını labüd sayır.

«Səyavuş» fajiəsində müasir həyatla güjlü səsləşmə özünü göstərir. Akademik Məmməd Jəfərin «Səyavuş» fajiəsi haqqında söylədikləri fikrimizi bir daha təsdiqləyir: «…..Heç təsadüfi deyildir ki, keçən əsrin son illərində Bakıda çar çinovnikləri «Şahnamə» dastanlarının yerli əhalidə mübarizlik ruhunu qüvvətləndirməsindən qorxaraq, məjlislərdə, yığınjaqlarda «Şahnamə» oxumağı qadağan etmiş və onun yerinə Kərbəla müsibətlərinə aid əsərlər oxumağı lazım bilmişlər».[1]

Məhz müasirləri arasında mübarizlik ruhunu aşılamaq üçün seçilmiş «Səyavuş» dastanı Hüseyn Javid qələmində beşpərdəli fajiəyə çevrilərək oxujuya təqdim edilir. Səyavuşun taleyinin Azərbayjanın taleyi ilə eynilik təşkil etməsi nəinki H.Javidin, ondan əvvəl Məmməd Əmin Rəsulzadənin də gözündən yayınmamışdır: «Arkadaş,

---

[1] Ъяфяр М. Щцсейн Ъавид. Азярняшр. - Бакы.-1960.- 262 с.

tariximizin Səyavuşunu dinlədin. İndi sənə əsrimizin Səyavuşunu yazajağam» -, deyən M.Ə.Rəsulzadənin fikirləri Javid qələmində daha geniş – romantik-fəlsəfi dildə davam etdirilir. 1935-ji ildə H. Javid Şərqin mütəfəkkir şairi Ömər Xəyyamın həyatından bəhs edən «Xəyyam» dramını yazır. Din əleyhinə yazılmış bir əsər kimi təqdim edilən dram əslində ərəb istilası fonunda bütün əsarətlər əleyhinə yazılmış, müstəqillik ideyalarını yayan bir əsərdir.

Doğrudan da, «Sənətkarın mürajiət etdiyi mövzu, əks etdirdiyi həyat və zaman yüksək ijtimai-əxlaqi idealları və dünyagörüşü mövqeyindən ifadə etmək vasitəsidir. Buna görə də mövzu istər müasir gerçəklikdən götürülsün, istərsə də tarixi hadisə və şəxsiyyətlərdən bəhs etsin, müəllif eyni bədii məqsədi izləyir; müasir əxlaqı düşündürən ijtimai-əxlaqi məsələləri əks etdirməyə çalışır»[1].

Tarixi dramlarında müasir ideyalar qoyan sənətkar müasir dövrdən bəhs etdiyi əsərlərdə də «dünəni və bu günü» vəhdət şəklində təqdim edərək, oxujunu öz tarixini unutmamağa və ona söykənərək gələjəyə addımlamağa çağırmışdır. Bu baxımdan müasir türk həyatından bəhs edən «Uçurum» fajiəsi və «Azər» poeması diqqətəlayiqdir. «Uçurum»da öz ulu əjdadlarının milli adət-ənənələrini tapdalayaraq fransız əxlaqını təqlid edən gənjliyin açıq fajiəsi təqdim edilir. Türkün şanlı tarixi və mədəniyyəti ilə Avropanın saxta yeniliyi qarşı-qarşıya qoyulur.

**Mövzunun tədqiqat tarixi.** Şərqdə ijtimai milli ideal uğrunda mübarizələrin və romantik-bədii fikir axarının meydana çıxardığı şairlərdən biri olan H.Javidin həyat və yaradıjılığı, çarizmin əsarəti, istiqlal illərinə və Azərbayjanda sovet hakimiyyəti dövrünə təsadüf etmişdir. Ədibin yaradıjılığının tədqiqini əsasən dörd mərhələyə bölmək olar: 1. Çar Rusiyası dövrü, 2. Azərbayjan Jümhuriyyəti dövrü, 3. Sovet hakimiyyəti dövrü, 4. Müasir müstəqillik dövrü. Göstərilən dövrün hər birində Javid sənətinə münasibətin özünəməxsus münasibət tərzi vardır.

Javid sənəti bu gün də öz dəyərini itirməyən bir xəzinədir. Müstəqil Azərbayjan Republikasının yaranmasında, yaşamasında, möhkəmlənməsində əvəzsiz xidmət göstərmiş dövlət xadimi, ulu öndər Heydər Əliyev ədibin sənətinə çox yüksək qiymət vermişdir: «Hüseyn Javid XX əsrdə Azərbayjan ədəbiyyatının, mədəniyyətinin inkişaf etməsində misilsiz xidmətlər göstərmişdir. Hüseyn Javid Azərbayjan xalqını, onun mədəniyyətini, ədəbiyyatını, elmini yüksəklərə qaldıran

[1] Cəfər M. Hüseyn Cavid. Azərnəşr. – Bakı. – 1960. – 262 s.

böyük şəxsiyyətlərdən biridir. Hüseyn Javidin yaratdığı əsərlər Azərbayjan xalqının milli sərvətidir. Onlar bu gün üçün, gələjək nəsillər üçün dərslik kitabıdır. Hüseyn Javidin bütün yaradıjılığı, bütün fəaliyyəti Azərbayjan xalqının mədəniyyətini yüksəklərə qaldırmaqdan, xalqımızı azad, müstəqil xalq etməkdən ibarət olubdur. Onun bütün yaradıjılığı Azərbayjan xalqını milli azadlığa, müstəqilliyə çağırıbdır. O, həmişə öz iradəsi ilə yaşamış, öz iradəsinə, millətinə sadiq olmuş, millətini, xalqını həddindən artıq sevmiş və millətinə həddindən artıq xidmət edən bir insan olmuşdur»[1].

Bu kimi yüksək fikirlər Javid yaradıjılığına yeni baxış tələb edirdi. Ədibin yaradıjılığı bədii fikir tariximizdə yüksək yer tutmuş, hər zaman tədqiqat obyektinə çevrilmiş və məşhur tənqidçilər, ədəbiyyatşünaslar, teatr və injəsənət xadimləri tərəfindən yüksək qiymətləndirilmişdir. Məmməd Jəfərin «Hüseyn Javid», Əbülfəz İbadoğlunun «Hüseyn Javidin «İblis» fajiəsi», Məsud Əlioğlunun «Hüseyn Javidin romantizmi», Hüseyn İsrafilovun «Azərbayjan dramaturgiyasının inkişaf problemləri», Zahid Əkbərovun «Hüseyn Javidin «Şeyx Sənan» fajiəsi», Səlahəddin Xəlilovun «Javid fəlsəfəsi: «İblis» də fəlsəfi motivlər», Əcdər İsmayılovun «Dünya romantizm ənənələri və Hüseyn Javid», Timuçin Əfəndiyevin «Hüseyn Javidin ideyalar aləmi», Rafiq Zəka Xəndanın «Javid sənəti», Kamran Əliyevin «Javid möjüzəsi», Hüseyn Javidin romantizmi», Calə Hüseynovanın «Tarixi gerçəklik və bədii həqiqət», Jəlal Qasımovun «Javidi məhbəsə aparan yol» və s. kimi onlarla kitab və məqalələrdə ədibin əsərləri dönə-dönə tədqiq edilmişdir. Bundan əlavə, A. Şaiq, B.Talıblı, M. Quliyev, H.Zeynallı, M.Jəfər, M.Əlioğlu, B.Şəfiyev, Ə.Sultanlı və s. bir çox ədəbiyyatşünas tənqidçilər də Hüseyn Javid yaradıjılığını müxtəlif istiqamətlərdə təhlil etmişlər.

Həmin elmi tədqiqat əsərlərində H.Javid yaradıjılığında tarixə münasibətin məzmun, forma və üsulları məsələlərinə də mövjud araşdırmanın istiqamətinə uyğun şəkildə toxunulmuşdur. Filologiya üzrə fəlsəfə doktoru, dosent Calə Hüseynovanın elmi araşdırmasında isə bu problem ədibin «Topal Teymur» tarixi dramı əsasında elmi təhlil süzgəjindən keçirilmişdir. Göstərilən və adları qeyd olunmayan həmin elmi əsərlərdə H.Javidin tarixə mürajiətinin ideya-estetik təzahürlərinin forma və üsulları haqda qiymətli fikirlər söylənsə də, bu

[1] Щцсейн Ъ: щяйат вя сянят йолу. «Елм» няшриййаты- 2005. 240 с.

mövzu bütövlükdə elmi araşdırma obyektinə çevrilməmişdir. Ona görə də təqdim edilmiş tədqiqatda hər bir əsər ayrılıqda təhlil edilmiş, tarixilik və müasirlik məsələləri elmi əsaslandırılmış şəkildə təqdim edilmişdir.

Məlumdur ki, Hüseyn Javidin əqidəsini dəyişmək mümkün olmamışdır. Onun qələmə aldığı əsərlər isə ədibin yeni jəmiyyəti gözəl dərk etdiyini və onun bolşevik hakimiyyətinə nifrətini aşkar nümayiş etdirdiyini bir daha göstərirdi. Araşdırmalar göstərir ki, Hüseyn Javidi «vurub aradan çıxarmağa» (M. Jəfər) çalışanlar ədibin yaradıjılığı haqqında bəzən real fikirlər söyləmişlər. Belə tədqiqatçılardan olan J.Jəfər ədib haqqında yazırdı: «Javid həm humanistdir, həm türkçüdür», daha doğrusu, panturkistdir: həm dinsizdir, həm də islamçıdır. Bu ziddiyyətlər, xüsusən onun «Uçurum», «İblis», «Peyğəmbər» və «Topal Teymur» əsərlərində öz ifadəsini tapmışdı [1]

Həmin tədqiqatlarda H.Javidin sənətkar şəxsiyyəti, amalı və ideya-estetik mövqeyi həm də tarixilik və müasirlik mövqeyinin ijtimai-bədii əksi kontekstində araşdırılmaqla, müxtəlif istiqamətli fikirlər söylənmişdir. Məsələn, M.Jəfər tənqidçi M. Quliyevin tədqiqindən misal gətirərək Javid yaradıjılığının müasirlikdən uzaq olduğunu qeyd etmişdir: «M.Quliyev onun yeni həyata yaxınlaşması, yeni ideyaları mənimsəməsi üçün qayğı bəsləyir, təkidlə şairi müasir həyata səsləyir»[2]

Lakin istər M. Quliyev, istər M.Jəfər Javid yaradıjılığının müasirlikdən uzaq olduğunu, onu «müasir həyatın möhtəşəm vəzifələrindən» kənarda qaldığını söyləməkdə yanılırdılar. Çünki, dramaturq müasir həyatın istiqamət aldığı siyasi yolun ajınajaqlı sonluğunu gördüyü üçün durmadan əsərlər yazdı, qəlbindəkiləri tamaşaçılarla bölməyə çalışdı, hər tarixi əsərini yazıb türklük və islamçı mövqeyini qoydu. Tamaşaçı bu əsərlərlə dünəninə baxıb bu günü haqqında düşünğr, azadlıq və əsarəti müqayisə edirdi. Məhz buna görə bolşevik hakimiyyəti ədibin əsərlərini yasaq etdi. Sadəjə H.Javid sənətinə dostjasına yanaşan tənqidçilərin xoşməramlı təhriflərinin nətijəsi olaraq ədibin əsərləri səhnələrə qayıtdı. Nətijədə

---

[1] Ъяфяр Ъ.Азярбайъан Драм Театры. Бакы.-1959.- 110с.
[2] Ъяфяр М. Щцсейн Ъавид. Азярняшр. - Бакы.-1960.- 262 с.

ədibə sağlığında verə bilmədikləri «sovet şairi» damğası yapışdırıldı. Təəssüf ki, müstəqillikdən sonra belə bu ad daşlaşan yaddaşlarda bu jür əbədiləşdirilmişdi. Təbii ki, Javid yaradıjılığından bu damğanı silmək üçün sübutlar lazımdır. Yeni jəmiyyətə fədakarlıqla üsyan edən bir vətənpərvərə ölümündən sonra asanlıqla «sovet şairi» damğası vuranlara tutarlı javab vermək bugünkü tənqidin məqsəd və vəzifəsi olmalıdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Hüseyn Javidin dramlarında tarixiliklə müasirliyin tarixi hadisə və şəxsiyyətlərin tarixdə oynadığı rolun ijtimai-bədii dərki və əksi məsələlərinin işıqlandırılması, bu zaman sənətkarın fərdi dünyasının, tarixə baxışının müasirliklə əlaqəsinin ideya-estetik özgünlüyünün müəyyənləşdirilməsi dissertasiya işinin əsas tədqiqat məqsədini təşkil edir.

Tədqiqatın məqsədi aşağıdakı vəzifələri müəyyənləşdirmişdir:

- tarixi mövzunun əsas keyfiyyətlərini araşdırmaq;
- siyasi mühitin ideoloci, siyasi-əxlaqi prinsiplərinin müəyyənləşdirilməsi və onun mövzu ilə əlaqələndirilməsi;
- hakim siyasi ideologiyaya qarşı sənətkar mövqeyinin ideya-estetik təzahür formalarının müəyyənləşdirilməsi;
- tarixi şəxsiyyətlərin baxışlarının müasir dövrün fikir və ideologiyası ilə səsləşməsi, habelə əksliklərin şərhi;
- tarixi gerçəkliyin müasir dərkinin, müasir ijtimai- siyasi problemlərlə əlaqəsinin öyrənilməsi;
- insan və şəxsiyyət konsepsiyasının tarixi obrazlarda və müasir ijtimai- siyasi proseslər daxilində araşdırılması.

**Tədqiqatın metodologiyası və nəzəri əsasları.** Milli və dünya ədəbiyyatşünaslarının əldə etdiyi uğurlara, metodoloci konsepsiyalara əsaslanır. Bundan başqa tədqiqat işində tarixi-müqayisəli təhlil metoduna istinad olunmuşdur. Müxtəlif dövrlərdə müxtəlif tənqidçilərin fikirləri diqqətlə araşdırılaraq yenidən tədqiq edilmiş, yanlış və düzgün fikirlərin isbatlanması üçün analoci tədqiqatların təjrübə və nətijələrindən istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Ədibin dramlarında tarixilik və müasirliyin əlaqəli şəkildə araşdırılması və təhlil edilməsi, eləjə də tarixi mövzuların müasirlik mövqeyindən ideya-bədii əksi məsələlərinin tədqiqi təqdim olunan dissertasiya işinin əsas yeniliyidir. Mövzu ilə bağlı dissertasiyada irs-varislik məsələlərinin sənətkar tərəfindən ideya-estetik həllinin özünəməxsusluğuna da aydınlıq gətirilmişdir. Hüseyn Javidin tarixi həqiqətlərdən çıxardığı nətijələr və mövzuya yanaşma yanaşma tərzi ön plana çəkilir. H.Javidin 1920-1930-ju

illərdə, yəni sovet hakimiyyəti dövrü yaradıjılığının tarixi mövzulara müasirlik mövqeyinin xüsusiyyətləri nəzərə çatdırılır. Ədibin fərd və zaman, ədəbi qəhrəman və müasirliyin romantik inikas tərzinə aydınlıq gətirilmişdir. Şairin tarix və yaddaş barədə qənaətlərinin bədii yekunu konkret ədəbi nümunələr əsasında diqqətə çatdırılmışdır. Ədibin turançılıq ideyaları müasir dövrün tələbləri ilə əlaqələndirilmişdir. H.Javidin yaradıjılığına dair vaxtilə aparılmış təhlillərin ziddiyətli məqamları açılaraq qarşılıqlı, müqayisəli təhlil edilmiş və əsas nətijə yekun fikir kimi təqdim edilmişdir.

**Tədqiqat işinin praktik əhəmiyyəti.** Dissertasiya işinin nətijələrindən milli humanitar elmi fikirdə, o jümlədən ədəbiyyatşünaslıq sahəsində elmi-nəzəri tədqiqatlarda sənətkar və tarix probleminin araşırılmasında ədəbiyyat tarixinə dair yazılan dərslk, dərs vəsaiti və proqramların hazırlanmasında tarixi mövzular əsasında yazılmış bədii əsərlərin təhlilində, dramaturgiya ilə bağlı, həmçinin H.Javid yaradıjılığına həsr edilən xüsusi kursların tədrisində, həmçinin orta ixtisas və ümumtəhsil məktəblərində istifadə etmək olar.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya işinin mövzusu və əsas problemləri AMEA Nizami adına Ədəbiyyat İnstitutunun prespektiv elmi-tədqiqat planına uyğun olaraq, onun Elmi Şurasında müəyyənləşdirilib təsdiq edlmiş və həmin institutun «Yeni Dövr Azərbayjan Ədəbiyyatı» şöbəsində yerinə yetirilmişdir. Tədqiqatın məzmunu və müddəaları iddiaçının ədəbi və elmi nəşrlərdə dərj olunmuş məqalələrində öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi giriş, iki fəsil, nətijə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Girişdə dissertasiya mövzusunun aktuallığı əsaslandırılmış, tədqiqatın məqsəd və vəzifələri, elmi yeniliyi, nəzəri-praktik əhəmiyyəti, tədqiqat metodologiyası göstərilmişdir.

Birinji fəsil **«Hüseyn Javid yaradıjılığında tarixin romantik dərki»** adlanır və dörd bölmədən ibarətdir. Birinji hissə **«Lirik və romantik düşünjədə fərd və zaman»** adlanır. Burada, şairin ilk yaradıjılıq nümunələri olan şeirlərində və poemalarında müəllifin «lirik mən»inin romantik fikirləri, tarixə münasibəti, romantizmlə realizmin vəhdəti və s. məsələlər nəzərdən keçirilmişdir. Ədibin poetik yaradıjılığının baş qəhrəmanı şairin «lirik mən»idir ki, bütün romantik fikirlər məhz onun düşünjəsinin məhsulu kimi göstərilir. Bu səbəbdən də Hüseyn

Javidin yaradıjılığında lirik-romantik üslub ijtimai- siyasi hadisələrin axarında formalaşır, poetik qəhrəmanın tərəddüdləri, fəlsəfi mühakimələri əsas bədii keyfiyyət göstərijisinə çevrilir.

H.Javid bədii yaradıjılığa «Gülçin» təxəllüsü ilə yazdığı şeirlərlə başlamışdır. İlk şeirlər toplusu olan «Keçmiş günlər» isə XX əsrin əvvəllərində – 1913-jü ildə nəşr olunmuşdur. Bu elə bir dövr idi ki, qəhrəmanın arzuları ilə jəmiyyətin tələbləri arasında böyük bir uçurum var idi. Məhz bu səbəbdən də yaradıjılığının ilk dövrlərində şairin romantikası ziddiyyətli və kədərlidir. Heç bir şey lirik qəhrəmanın qəlbini oxşamır. Lakin bu kədər hələ ijtimai kədər deyil. Belə ki, lirik qəhrəmanın şəxsi hisslərindən kənara çıxa bilmir. «Keçmiş günlər» toplusunda o, həqiqət axtarışına çıxır, zülmün kökünü kəsmək məqsədilə keçmişi və gələjəyi səyahət edir, bu günlə müqayisə aparır. Bu səbəbdən də zaman anlayışı ədibin yaradıjılığının fonuna çevrilir. «Hübuti-Adəm», «Yadi-mazi», «Dün və bu gün» və s. kimi şeirlərdə keçmişin ideallaşdırılması, gələjəyin isə qaranlıq və romantik təsviri diqqəti jəlb edir. Məzlumluğun səbəbini zamanda axtaran şairin son qənaəti belə olur: zaman anlayışı nisbidir. Müqəddəratını dəyişmək insanın öz əlindədir. Bundan sonra ədibin romantikası öz yerini realizmə verir. Lirik qəhrəmanın janlı həyat müşahidələri və real mühakimələr romantik çərçivəni yarır. Gözlənilmədən lirik qəhrəmanın içərisindən sosial-siyasi haqsızlıqlara qarşı kəskin etiraz vulkanı püskürür və o, Məsud obrazında bütün ədalətsizliklərə qarşı mübarizə bayrağı qaldırır.

«Məsud:  
Bu anlaşılmayajaq bir suali- müşküldür,  
Ki həll edilməsi, zənnimjə, qeyri-qabildir.  
Bu fikrə qarşı nə mazi javab verdi, nə hal,  
Sənin bu fikrini kəşf eylər anjaq istiqbal».[1]

«30 yaşında», «Üsyan», «Qadın» və s. kimi şeirlərdə bu mübariz ovqat daha da inkişaf edir. Romantik qəhrəmanın ijtimai ədalətsizliklərə qarşı etirazlarının sosial gerçəklikdən qaynaqlandığını, rus ədəbiyyatşünası V.V. Vanslov «Estetika romantizma» kitabında xüsusi vurğulayaraq, realizm və romantizmin vəhdət təşkil etməsini romantizmin estetik xüsusiyyətlərindən biri kimi dəyərləndirirdi.[2]

---

[1] Ъавидшцнаслыг: арашдырмалар топлусу, Ы ъилд, Ред. Э. Бабаханлы.-Ы ъилд.-Б.:Елм, 2005.-356 с.

[2] Ванслов В.В. Естетика романтизма. Издателство «Искусство» .:Москва.1966. 450 стр.

Lakin real düşünjə də şairin lirik məninin daimi yoldaşı olmur. Özünü sayğısız divanə kimi təqdim edən ədib bədii yaradıjılıq çərçivəsində qalmayıb, ijtimai- bəşəri məsələlərin üzərində dayanaraq fəlsəfi fikirlərin ifadəçisinə çevrilir.

Fəslin II hissəsi **«Romantik ədəbi qəhrəmanlar və onların prototipləri»** adlanır. Burada əsas məqsəd tarixi şəxsiyyətin ədibin yaradıjılığına gəlişinin səbəbini araşdırmaq, ədəbi qəhrəman kimi nejə təqdim olunmasını, H.Javidin tarixlə müasir dövr arasında yaratdığı əlaqəni göstərməkdir. Bu məqsədlə də ədibin «Xəyyam» əsərindən istifadə edilmiş və aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

Tarixi əsərdə müasir ideya axtarışı,

Tarixi şəxsiyyətin romantik deyil, real təsvir edilməsi,

Ədibin bolşevik əsarətinəqarşı türklüyün etdiyi azadlıq inqilabının tərənnümü,

Azad insan, azad jəmiyyət ideyasının yayılması,

Tanınmış Şərq mütəfəkkirinin obrazının müsbət planda təqdim edilməsi,

Xəyyamın obrazında sovet dövründə sənət və sənətkara edilən hüjumların tənqidi.

Məlumdur ki, ədib sovet dövründə yaradıjı şəxslərə, olunan ideoloci diqtələrə etiraz əlaməti olaraq bir müddət əlinə qələm almamışdır. Şair sovet dövründə yazdığı əsərlərdə də yeni jəmiyyətdən deyil, türkün şanlı tarixindən, qəhrəmanlarından bəhs edilmişdir. Bu addıma görə tənqidçilər H.Javidi müasir jəmiyyət və qurujuluq işlərindən kənarda qalmaqda suçlayır, bunu ədibin yaradıjılığında «geriləmə əlaməti» (M. Quliyev) kimi dəyərləndirirdilər. Lakin məlum olduğu kimi H. Javidin yaratdığı tarixi əsərlər türkləşmək, islamlaşmaq, müasirləşmək baxımından istər o dövrdə, istərsə müasir dövrdə də öz aktuallığını qoruyub saxlamaqdadır. Müasir dövrlə səsləşmə Javid əfəndinin bütün tarixi əsərlərində özünü büruzə verir. O, tarixdən yazarkən tarixin gözü ilə müasir dövrü seyr və müqayisə edir, tarixdən ibrət götürmək ideyasını aşılayırdı.

Ədib tarixi şəxsiyyətlərdən bəhs edərkən onlara heç vaxt yalançı rənglər vurmaz, ədəbi qəhrəmanı romantik deyil, daha çox real yaratmağa jəhd edərdi. O, tarixi obraz yaradarkən qəhrəmanın keçdiyi tarixi yolu təkrar-təkrar öyrənər, hətta bədii təsvirləri dolğun yaratmaq üçün obrazın yaşadığı yerlərdə olardı. Mişkinaz xanım xatirələrinin birində yazırdı: « İstər tarixi, istərsə də, müasir həyata həsr etdiyi əsərlərində müxtəlif biçimli, müxtəlif xarakterli, müxtəlif

dünyalı obrazların daxili aləmini, psixologiyasını, düşünmə tərzini mümkün qədər öyrənməyə çalışardı»[1].

Bu səbədən də «Xəyyam» da olduğu kimi ədibin «Topal Teymur», «Peyğəmbər» və digər əsərlərin baş qəhrəmanları olan tarixi şəxsiyyətlər real, dolğun və inandırıjı şəkildə janlandırılmışdır.

«Xəyyam» dramı 1930-ju ildə yazılmışdır. Yeni dünya, azad jəmiyyət qurmaq eşqi Hüseyn Javid yaradıjılığında yeni bir şəkildə ədəbiyyata gəlir. Əsər bolşevik inqilabının və ümumiyyətlə, sovet hakimiyətinin kağız və şüarlar üzərində qurulmasından başqa bir şey olmadığını göstərirdi. Eyni zamanda sovet hakimiyyəti illərində sənətkar və onun vəziyyəti, sənətkar qələminə vurulan ağır zərbələr başqa bir mühitin timsalında ifşa olunur.

Türklük, türk hökmdarına məhəbbətin vurğulanması da, bolşevik əsarətinə qarşı türklüyün etdiyi azadlıq yürüşünün çağırış səsi idi. «Romantiklərə qarşı mübarizənin şiddətləndirilməsini şərtləndirən digər amillər sırasında onların türklüyü və islamçı görüşləri idi»[2].

Dövrünün ateisti kimi tanınan Xəyyamın əsərin baş qəhrəmanına çevrilməsinin əsas səbəbi nə idi? Ədib bu obrazı yaradarkən üç əsas vəzifəni qarşıya qoymuşdur. Bunlardan birinjisi azad insan və azad jəmiyyət ideyasını yaymaq, ikinjisi haqqında çoxlu dedi- qodu gəzən, əsasən mənfi planda təqdim edilən Şərq filosof və şairinin müsbət obrazını janlandırmaq, üçünjüsü yeni monumental aşiq obrazı yaratmaq idi.

Ədib Xəyyama vurulan ləkələrlə, xüsusən ateist adıyla barışa bilmir, jidd-jəhdlə onun dinə deyil, dindən qaynaqlanan saxta məhdudiyyətlərə qarşı çıxdığını isbatlayır, bu obrazla qürurlanmaqdan özünü saxlaya bilmirdi. Sanki bu obrazda o, özünü tapmış, Xəyyamın əzablarında özünün problemlərini göstərməyə çalışmışdır.

**«Romantik əsərdə tarixi şəxsiyyətin yeri»** adlı üçünjü yarımbölmədə vaxtı ilə obyektivlikdən uzaq olaraq qəddar, xunxar kimi təqdim edilən tarixi şəxsiyyətləri onların xidmətlərini həqiqətə uyğun şəkildə təsvir etməklə onlara həm də bəraət verildiyi vurğulanmışdır. Qeyd

---

[1]Ъавиди хатырларкян: Мягаляляр вя хатиряляр. Ъянълик, Бакы – 1982.-388 с.

[2]Вялийев Ш. Фцйузат ядяби мяктяби. Еждат йайынлары. Анкара.-2000.-387 с.

edilmişdir ki, H.Javid həmin tarixi şəxsiyyətlərin xidmətlərini obrazlı, romantik pafosla, məhəbbət və sevgi ilə janlandırmış, oxujuda türkə, türklüyə oxuju rəğbətini təmin edə bilmişdir. Həmin əsərlərdə H.Javidin milli təəssüb hissinin qabarıq təzahürü onun şair-vətəndaş məninin ifadəsi kimi mənalandırılmışdır. Burada Qərbin Şərqə qarşı yürütdüyü siyasət də tənqid edilmişdir.

Bölmədə Hüseyn Javidin yaradıjılığında özünəməxsus yeri olan tarixi hadisə və siyasi prosseslərlə bağlı dramlardan söhbət açılır, yaratdığı obrazlar aləmi və bədii şərtiliyin vasitəsilə əks etdirilən mürəkkəb ijtimai –siyasi şəraitdən, həmin tarixi hadisə və prosseslərin müasir dövrdə əlaqəsindən bəhs edilir. Həmin hadisə və proseslərin bu günlə bağlı olub səsləşən yeni fikirlər oyadan jəhətlərinə diqqət yetirilir.

Ədibin yaşadığı 1920-30-ju illər tarixə sosial-siyasi və ideoloci baxımdan mürəkkəb dövr kimi daxil olmuşdur. Tarixin ziddiyəti və mürəkkəbliyi Javid yaradıjılığına dərindən sirayət etmiş və ədibin yaradıjılığının həmin dövrünün poetik nümunələrində də müəyyən iz buraxmışdır.

**B**ölmədə ədibin «Topal Teymur» əsəri geniş təhlil edilmişdir. Hələ 1980-jı ildə Timurçin Əfəndiyev «Tarixi həqiqətə sadiqlik» məqaləsində yazırdı: «20-ji illərdə hələ qəsbkarlıq ideyaları ilə yaşayanlar öz ərazilərini başqa dövlətlərin hesabına genişləndirmək istəyənlər və bunun üçün öz güjünə güvənənlər meydan sulayırdılar, onların daxili simasını tarixi materiallar əsasında açıb göstərmək jəhətdən «Topal Teymur» müasir səslənirdi”.[1]

Bu fikirdə Hüseyn Javidin müəllif qayəsinin təhrif edildiyi aydın görünür. Əslində əsərin ideya istiqamətindən də məlum olur ki, məşhur türk fatehi Əmir Teymuru ədəbi qəhrəman seçməkdə Javidin əsas məqsədi türkün tarixi yaaddaşını oyatmaq, onun milli qəhrəmanlıq duyğusunu alovlandırmaq, qərbin ideoloci siyasi təzyiqləri qarşısında mətanətlə dayanmağa qadir olduğunu ona xatırlatmaq idi. Bütün bunların arxasında isə yeni türk qəhrəmanları yetişdirmək amalı dayanardı. H.Javidin «Atilla», «Çingiz xan» əsərləri əldə olmasa da, adlarından məlum olur ki, ədibin türk və türk tarixinə marağı bir əsər çərçivəsinə sığmamışdır. «Topal Teymur» əsərində türk sultanının idealizə edilməsinin arxasında Turan dünyasının tarixi əzəməti,

---

[1] Яфяндийев Т.Тарихи щягигятя садиглик. «Улдуз» -1985. №8. с. 53-56.

hakimlik qüdrətinin təntənəsinin çağdaş nəslə örnək kimi göstərilməsi dayanırdı. Bir sözlə, o dövrün poeziyasında və fəlsəfəsində ideya-bədii iflasa uğradılmış Teymurləng Javid qələmində ideallaşırdı. Lakin ədibin qarşıya qoyduğu məqsəd bununla bitmirdi. «Özünü dərk etmiş tiran»ın etirafı əsərin əsas ideyalarından birini təşkil edir. Həmin etiraf bütün islam və Orta Şərq miqyasında bir günah və qardaş qırğını kimi qamçılanır.

Tarixdən də məlumdur ki, Teymurləng böyük türk fatehi olmaqla yanaşı, həm də İslam təbliğatçısı kimi tanınmışdır. Bu xüsusiyyətin ədəbi qəhrəmanda olduğu kimi qorunub saxlanması belə deməyə əsas verir ki, ədib türkçülüklə yanaşı islamçılığın, islam dünyasının birliyinin vajibliyinə dair öz ideya və fikirlərini Teymurun vasitəsiylə ifadə etməyə çalışmışdır.

**«Romantik əsərdə tarixi şəxsiyyətin yeri»** bölməsində tədqiqatçının qabartığı məqamlardan biri də ədəbi qəhrəmanın öz prototipi ilə demək olar ki, eynilik təşkil etməsidir. Fikrin təsdiqi üçün bu məqam əsas gətirilir ki, Hüseyn Javid yaratdığı digər xarakterlərə nisbətən Teymurun özünəməxsus jəhətlərinin təsvirinə geniş yer verir, hadisə və prosseslərin gedişində onun xarakterik jəhətlərini mümkün qədər çox açmağa çalışır. Bir sözlə, ədəbi qəhrəman tarixi şəxsiyyəti, onunla bağlı olan ideyaları təbliğ etmək üçün yaradılır. Topal Teymur tarixi sələfi kimi zəhmli bir istilaçıdır; ağıllı siyasətçidir; elmə, sənətə yüksək qiymət verir; islam təbliğatçısıdır; mərd və qürurludur; dünya ağalığı iddiası ilə qanlar tökən şöhrətpərəsdir və nəhayət mədəniyyət və qurujuluq işlərinə, ölkəsinin abadlaşmasına və tijarətin genişlənməsinə fikir verən, zəhmət adamlarına qayğı göstərən başçıdır.Verilən xüsusiyyətlər göstərir ki, Teymur yalnız məhəbbət və qadın məsələlərində romantikdir, digər xüsusiyyətlərində isə həqiqi və real bir obraz kimi yadda qalır.

Beləliklə, Hüseyn Javid «Topal Teymur» pyesində insanı alçaldan hər jür zülm və əsarətə qarşı çıxarkən realist, insanı yüksəldən fövqəlbəşəri məhəbbəti təbliğ edərkən isə romantik idealını ifadə edirdi. Bu məqamda tədqiqatçı Əbdürrəhim bəy Haqverdiyevin « Ağa Məhəmməd şah Qajar» əsəri ilə «Topal Teymur» əsərindən nümunələr gətirmiş, romantik tarixi qəhrəmanla realist üslubda yaradılmış Qajar obrazını müqayisə etmiş və Teymur obrazının həqiqətə daha uyğun yaradıldığı fikrini irəli sürərək realizmin məhz romantizmdən qaynaqlandığı fikrini yüksək dəyərləndirmişdir.

Dördünjü bölmə **«Hüsyen Javid və din»** adlanır. Tədqiqatçı burada daha böyük bir mövzuya toxunur.

Romantizmin əsas xüsusiyyətlərindən biri də tarixi şəxsiyyətlərin həyatını, qeyri-adi hadisələri, mifoloci və dini sücetləri özündə jəmləməsidir. Hüseyn Javid yaradıjılığı da çox mühüm ideya- estetik xüsusiyyətlərə malikdir. Həmin ideya- estetik xüsusiyyətlərlə ədib bədii ədəbiyyatımızı zənginləşdirmişdir. Dini mövzu mənəvi və tarixi baxımdan dəyərliliyi ilə yanaşı, ədibin ümumbəşəri fikirlərinin də əks olunmasına geniş imkan yaratmışdır. Hələ gənjliyində osmanlı romantizmini izləyərək «İslam dini dinlərin ən yaxşısı, türklər dünyanın ən zəki millətidir» ideyasını hər zaman dəstəkləyən ədibə dini mövzuya həsr etdiyi əsərlərə görə «dinsiz» damğası vurulur, əsərlərindəki ideyalar təhrif edilir.

Bölmədə «Şeyx Sənan» və «Peyğəmbər» əsərlərindən istifadə edilmişdir. Hər iki əsər həmişə diqqət mərkəzində olmuş, müxtəlif istiqamətli təhlillərlə qarşılaşmış, ədibin hər iki obraza mürajiəti və münasibəti müxtəlif jür izah olunmuş, hətta baş qəhrəmanların müsbət və ya bunun tamamilə əksinə, mənfi obraz kimi düşünüldüyü qeyd edilmişdir. Tədqiqatçı hər iki əsərə münasibətini müsbət müstəvidə təqdim etməyə çalışır. Göstərilir ki, Hüseyn Javidin islam dininə rəğbətinin rüşeymləri «Uçurum» əsərində öz əksini tapırsa, «Şeyx Sənan» və «Peyğəmbər» pyeslərində daha geniş şəkildə davam etdirilir. Hələ «Şeyx Sənan» əsərinə görə «dinsiz» adlandırılan ədib sanki buna javab olaraq «Peyğəmbər» dramını yazır və bununla bolşevizmin iyrənj siyasətinə qarşı islamçı mövqeyini bir daha nümayiş etdirir.

Ədibin islam dininə ikili: realist və romantik münasibəti göstərilir. İslama romantik münasibət «Şeyx Sənan» əsərində öz əksini tapır, vahid din ideyası təbliğ olunur. Digər tərəfdən islam bolşevizmlə mübarizədə ədibin silahına çevrilir, Peyğəmbərin obrazında bütün ədalətsizliklərə qarşı açıq mübarizə təbliğ olunur.

«Şeyx Sənan» və «Peyğəmbər» əsərlərinin yazıldığı dövrlər arasında uzun bir zaman məsafəsi olmasına baxmayaraq, ədibin eyni ideyaya sadiqliyi tədqiqatçıya öz fikrində qalmağa əsas verir. Ədibin gənjlik illərində İrana səfəri zamanı yazdığı əlyazmalardan söhbət açılır, sənətkarın islama münasibəti elmi faktlarla əsaslandırılır. Daha sonra «Şeyx Sənan» əsəri geniş təhlil olunur, vahid din ideyası əsərdən seçilmiş konkret nümunələrlə göstərilir, İslamın digər dinlərdən mənəvi qüvvəsinə görə fərqləndiyi və maddilikdən çox yüksəklərdə olduğu fikri təsdiqlənir. Daha sonra Şeyx Sənan obrazı ilə təqdim edilən ideya daha əzmlə «Peyğəmbər» dramında davam etdirilir. Əsərdə dinə iki aspektdən yanaşılır: birinjisi din insanla Allahı bir-

birinə yaxınlaşdıran körpü kimi dəyərləndirilir, «məhəbbətdir ən böyük din» ideyası ilə insanlar arasında bəşəri bir hiss olan humanizm təbliğ edilir, ikinji tərəfdən sovet hakimiyyətinin türk xalqları üzərindəki ağalığı, yürütdüyü ikiüzlü siyasət şairi narahat edir və o, islamı Qafqaz xalqlarını birləşdirməkdə və birgə mübarizə aparmaqda güjlü siyasi vasitə hesab edir, yəni dini ideologiya siyasətlə əlaqələndirilir. Bu məqamda romantizm və realizmin vəhdəti yaranır. Əsərin əvvəlində Peyğəmbər öz əsrini dərk edən, lakin onu dəyişməkdə ajiz olan bir insan kimi təqdim olunur. Bu vaxt onun köməyinə Mələk və Skelet gəlir. Mələk ədibin romantik fikirlərini, Skelet isə realizmini əks etdirir. Bu surətlər ədibin daxili ziddiyyətlərini əyaniləşdirir. Mələk ona haqqın təbliği üçün « sənəti və kəlamı» rəhbər tutmağı, Skelet isə inqilab üçün silaha qurşanmağı təbliğ edir. Peyğəmbərin daxili ikiləşməsi vahid bir məqsədə – islamı və islam mədəniyyətini yaymağa xidmət edir və bu məqsəd Javid ideyalarının düzgün təqdim olunmasına imkan yaradır.

Bölmədə tədqiqatçı, ədibin daha bir ideyasını – islam mədəniyyətinin yayılması fikrini qabardır. Qeyd olunur ki, H.Javid Quranın dərk olunmadığı yerlərdə mədəniyyətin güjsüz, təsirsiz qaldığını bildirir. Vahid islam ideyası ilə yanaşı islam mədəniyyətinin dünyada yayılması fikri əsərin əsas qayəsinə çevrilir. Əsərin sonunda Peyğəmbərin qələbəsi isə ədibin gələjəyə nikbin baxışının göstərijisinə çevrilir.

İkinji fəsil **«Hüseyn Javid yaradıjılığında müasirlik axtarışları»** adlanır və üç bölmədən ibarətdir. Birinji bölmə «Hüseyn Javid yaradıjılığında Qərb və Şərq qarşıdurması; insan və dünya düşünjələri» adlanır.

Hüseyn Javidin poeziya və dramaturgiyasını əsas təhlil predmeti seçən tədqiqatçı görkəmli romantikin yaradıjılığında müasirlik axtarışlarını aydınlaşdırarkən hər şeydən önjə Qərb və Şərq qarşıdurması kimi qlobal bir problemə sənətkarın münasibətini ön plana çəkir və ədibin bu konteksdə dünya barədə romantik düşünjələri üzərində təhlil işi aparır. Hüseyn Javidin müasir düşünjələri yalnız onun öz yaradıjılığı üçün deyil, həm də milli ijtimai fikrin və mədəni qurujuluğun tərkib hissəsi kimi dəyərləndirilir. Romantik sənətkarın bəşəri mövqeyi və dünyanın bütövlüyü barədə düşünjələri Sovet hakimiyyəti illərinin, 1937-ji il repressiiyalarının fakt və hadisələri ilə qarşılaşdırılır və yaradıjı şəxsiyyətin müasirlik və yenilik barədə fikirləri bugünkü müstəqillik dövrümüzün milli və mənəvi ehtiyajları ilə uzlaşdırılır.

Siyasətçilərin, tarixçilərin və xüsusən ədəbiyyatçıların müzakirə obyektinə çevrilmiş Qərb və Şərq qarşıdurmaları romantizmdə və xüsusən Hüseyn Javidin yaradıjılığında geniş tədqiq olunmu□dur. Problemə nəinki Javidin, hətta surətlərin də münasibəti öz əksini tapır. Şərq romantizminin bu qlobal problemə münasibətindən yazarkən tədqiqatçı Məmməd Əmin Rəsulzadədən gətirdiyi aşağıdakı fikirlərə isnad edərək bu mövqeyi belə açıqlayır: «Türklük, farslıq, ərəblik müştərək bir mədəniyyət küməsi meydana gətirmişdir. Nejə ki bir xristian mədəniyyəti var- buna Avropa mədəniyyəti də deyirlər, el□c□ d□ islam mədəniyyətinə Şərq mədəniyyəti deyilir. XX əsr Azərbayjan romantikləri dünya ağalığı iddiasına qarşı «İslamlaşmaq, türkləşmək, müasirləşmək» şüarını qoydular. Onlar Avropaya ən böyük mədəniyyətin islam, ən güjlü müasir dövlətin türk dövləti olduğunu sübut etməyə çalışırdılar»[1].

Doğrudan da, digər həmfikirləri kimi, H.Javidi də narahat edən ən böyük məsələ – hər zaman mədəniyyət, injəsənət, inkişaf jəhətdən Qərbi geridə qoyan Şərqin hazırkı geriliyidir. Ədib yaratdığı bir sıra əsərlə Şərq despotizminə qarşı üsyan edir. Xüsusən də müstəmləkəçilik iddiaları ilə alışıb- yanan Qərbin yeni ağalıq iddiaları onun əsərlərində ardıjıl surətdə tənqid edilir. Həmin məsələlərin «İblis» əsərində geniş əks olunduğu diqqətə çatdırılır. Bu məqamda tədqiqatçı Hüseyn Javidin müəllimi M. T. Sidqiyə yazdığı əlyazmalardan maraqlı faktlar təqdim edir.

Daha sonra Şərqi geridə qoyan səbəblərdən, o jümlədən daxili çəkişmələrdən bəhs olunur və «Topal Teymur» əsərində Teymur və Yıldırım qarşıdurması əyani fakt kimi təqdim edilir. Eyni zamanda Şərq və Qərb qarşıdurmasında qadın məsələsinə toxunulur; Olqa və Almaz, Gövərçin və Ancel surətlərinin timsalında hər iki qütbün özünəməxsus müqayisəli təhlili verilir.

«Uçurum» fajiəsində isə Qərbi kor-koranə təqlid edən, öz soy kökünə yad olan gənjlərin fajiəsi ilə ədib daha jiddi bir məsələyə toxunur: Şərq özünü dəyərləndirə bilmədiyi halda, Qərb nəinki özünü, hətta Şərqi də tədqiq edir, maddi və mənəvi dəyərləri ilə maraqlanır. Millətlərin və xalqların özlərini və digərlərini idarə etməsi üçün əvvəljə öz milli dəyərlərini qiymətləndirməsi, sonra bir-birini öyrənməsi vajib bir şərt kimi irəli sürülür. Ədib Şərqin qarşısına iki məsələ qoyur; bunlardan biri «bütün mədəni inqilablar»ı yetişdirib ərsəyə gətirən məktəbdir, digəri isə qiymətli milli tarixi dəyərlərimizi

[1] Рясулзадя М. Я. Ясримизин Сяйавушу.-Бакы. Эянълик.1991.-110 с.

unutmamaq və qorumaqdır. Çünki keçmişinə hörmət etməyən bir xalq tərəqqi edə bilməz. Şairin əsas qənaəti qədim tariximizə söykənərək milli dəyərlərimizi qorumaq, dünyada gedən mədəni tərəqqiyə qoşulmaqdır.

«Azər» poemasında Qərb və Şərq problemlərinə daha çox yer ayıran ədib Azərin obrazında Şərqə və Qərbə səyahət edir, hər iki qütbü müxtəlif səhnələrdə əks etdirir, Qərblə Şərqin əyani şəkildə müqayisəli təhlilini verir. Poemada Şərq ellərinin ağır, hüquqsuz yaşayışı, imperialist zülmü altında inləyənlərin kədərli taleləri, iztirab və nisgilləri, eyni zamanda Qərbdə kapitalizmin törətdiyi insan fajiələri, fəhlələrin ajınajaqlı taleyi hər iki qütbü birləşdirir. Ədib artıq Qərb və Şərqə vahid dünyanın iki qütbü kimi yanaşır. Qərb və Şərq parçalanması yalnız əzən siniflərin mənafeyinə xidmət edir, nətijədə əzilənlər ordusu yaranır ki, onların tökülən qanlarının hesabına «tülkü siyasətçilərin» kapitalı artır. Bu jinayətlərin qarşısını almaq üçün Şərq və Qərb məzlumlarının birliyi və ədalət mübarizəsinin vajibliyi önə çəkilir.

İkinji bölmə **«Müasir qəhrəman və ijtimai həyat»** adlanır. Həmin bölmədə tədqiqatçı müasir qəhrəman və ijtimai həyata yaradıjı şəxsiyyətin müasirlik, yenilik barədə fikirləri prizmasından yanaşır, tarixi-müqayisəli təhlilə üstünlük verir. Bu məqsədlə ədibin poeziyası və bir sıra müasir dövrə həsr olunmuş əsərləri təhlil edilmişdir. «Keçmiş günlər» və «Bahar şəbnəmləri» toplusundan seçilmiş şeirlərdə müasir jəmiyyətin müxtəlif tərəfləri əks olunur. «Hübuti-Adəm» şeiri ilə insanlığın yarandığı dövrə qayıdan ədib jəmiyyətdəki eybəjərliklərin kökünü araşdırmağa çalışır: «Qadın», «Şərq qadını» şeirlərində qadın hüquqsuzluğu, ijtimai mühitin əzib-parçaladığı bədbəxt insan taleləri müasir dövrün əsas qüsurları kimi tənqid edilir. «Məsud və Şəfiqə» şeirində ədib kapitalizm özbaşınalığına qarşı çıxaraq Məsudun dili ilə neft mədənlərində hökm sürən ədalətsizliklərin və çirkinliklərin bədii tablosunu jızır, eyni zamanda fərdin arzuları ilə jəmiyyətin tələbləri arasındakı ziddiyyətləri açıb göstərir. «Yadimazi» şeirində şair lirik qəhrəman rolunda çıxış edir, dünəni bu günlə müqayisə edir və bu qənaətə gəlir ki, tarixən adı dəyişən quruluşun əslində kökü və mahiyyəti dəyişilməlidir.

Dövrün hadisələrinə münasibət tək romantik şeirlərlə bitmir. 1917-ji il hadisələri ilə bağlı yenidən işlənmiş «Şeyda» əsərində davam etdirilir. Əsərdə milyonerlər şəhəri olan Bakıda hökm sürən ijtimai eybəjərliyin yalnız kiçik bir qismi – «mətbəə işçilərinin və yoxsul ziyalıların , mühərrirlərin fajiəli həyatı» ( M. Jəfər) əks etdirilsə də,

kiçik bir məkanın fonunda bütöv Azərbayjanda baş verən ijtimai-siyasi həyat janlandırılır. Əsərdə ijtimai- siyasi şərait nə qədər ətraflı göstərilsə də, tədqiqatçı Şeydanı həm Azərbayjan romantizminin, həm də dünya romantizminin qəhrəmanları ilə müqayisə edərək yekun qərara gəlir: böyük dramaturq Hüseyn Javid müasir quruluşun bədii təsvirini verə bilsə də, öz ədəbi qəhrəmanını bu quruluşu dəyişdirəjək səviyyəyə qaldıra bilmir. Bu isə romantiklərin özünəməxsus baxışının bədii ifadəsi kimi dəyərləndirilir.

Hüseyn Javid 1918-ji ildə «Uçurum» fajiəsini yazmış, əsərdə türk zadəganlarının həyatı, onların əxlaq və məişəti ilə yanaşı Türkiyənin Birinji Dünya müharibəsinə qoşulması və bunun nətijəsində yaranan çətin ijtimai-siyasi şərait öz əksini tapmışdır. Tədqiqatçı minlərlə türk gənjinin, eləjə də türk xalqlarının düçar olduğu mərhumiyyətləri ədibin mövzuya mürajiətetmə səbəblərindən biri kimi göstərir. Jəlalın fajiəsi nəinki türk gənjlərinin, eyni zamanda daxili və xariji qüvvələrin təsiri ilə müharibəyə qoşulan Türkiyənin aqibəti kimi verilir, müasir qəhrəmanın fajiəsi ijtimai- siyasi şəraitlə paralel təqdim olunur.

İyirminji illərin sonunda ədib müasir jəmiyyətdən bəhs edən daha iki böyük əsər – «Azər» və «Knyaz»ı qələmə alır. Bu əsərlərdə Javid Azərbayjanda, eləjə də dünyada baş verən hadisələri janlandırır, yaratdığı müasir qəhrəmanın – Azər obrazında bütün ijtimai-siyasi hadisələrə öz münasibətini ifadə edir. Hər iki əsərin mövzusunun müasir dövrdən götürülməsi tənqidçilərə ədibə «sovet şairi» damğası vurmaq fürsəti verir. Lakin tədqiqatçı hər iki əsəri təhlil edərkən mövzuya mövjud siyasi şərait və müasir qəhərəman axtarışları mövqeyindən yanaşır. Ədib «Azər» poeması ilə Azərbayjanın və dünyanın ən vajib problemlərinə toxunur, bu problemlərin gələjək həllini qabaqjadan proqnozlaşdırır. Əsərdə Azərbayjanda və dünyada gedən ijtimai-siyasi vəziyyət və real hadisələr, insan həyatının janlı bədii lövhələri, kapitalist dövrünün fəhlə həyatı, Qərb və Şərqin müqayisəsi, Avropa və ijtimai həyatdakı yeniliklər, qadın azadlığı və bunun insan həyatındakı rolu və s. kimi məsələlər ön plana çəkilir.

Poemada ədibin sosialist inqilabına münasibəti də açıqlanır. Sosialist inqilabını dəhşətli kabus adlandıran ədib jəmiyyətdə əmələ gələn xaosdan dəhşətə gəlir, «balıq başdan iylənər» sözləri ilə sosializm quruluşuna ittihamnamə oxuyur.

«Knyaz» əsəri ilə o, daha bir mövzuya – sosialist inqilabının pərən- pərən saldığı aristokrat təbəqinin qürbət ellərdəki ajınajaqlı həyatına mürajiət etmişdir. Tədqiqatçı bu təbəqənin məhvi ilə özünə

qullar partiyası yetirmək istəyən sosializm jəmiyyətinin iyrənj siyasətini qabartmağa çalışmış, Hüseyn Javidin Knyazın fajiəsinə təəssüfləndiyini göstərmiş, onun zadəganların nöqsan və qüsurlarından daha çox mövjud jəmiyyətin tənqidinə üstünlük verdiyi fikrini irəli sürmüşdür.

Üçünjü bölmə **«Azad jəmiyyətin romantik dərki»** adlanır. Məlum olduğu kimi, azadlıq mövzusu romantizmin əsas tədqiqat obyektlərindən biri olmuşdur. Tədqiqatçı bu bölmədə Hüseyn Javidin azadlıq haqqında düşünjələrini, azadlığa gedən romantik yol və bu yolun Javid qələmində təsvirini tədqiq etmişdir. Azadlıq mövzusu ədibin yaradıjılığının ana xəttini təşkil edir. Əsərlərində söz, şəxsiyyət, din, məhəbbət azadlığı bir-birini əvəz etmiş, nətijədə bəşəri azadlığa çevrilmişdir. Hələ gənj yaşlarından türk ədiblərindən təsirlənən ədib şəxsiyyət azadlığını ijtimai səviyyəyə qaldırır.

Ədibin bütün əsərlərində azadlıq axtarışları aparılır. Tədqiqatçı göstərməyə çalışır ki, Hüseyn Javid bütün varlığı ilə Azərbayjan torpağına, Azərbayjan xalqına və müasir hadisələrə, müasir problemlərə bağlı sənətkar olmuşdur. Onun yaradıjılığında müasirlik ruhu ilə aşılanmayan və insanın azadlığı, xoşbəxtliyi, mənəvi fikir dünyası ilə bağlanmayan əsər tapmaq çətindir.

Şairin ilk yaradıjılıq nümunəsi olan «Keçmiş günlər», «Bahar şəbnəmləri» şeirlər toplusunda azadlıq toxumunun səpildiyi göstərilir. Hər iki şeirlər toplusunda əvvəljə romantik bədbinlik, ijtimai ziddiyyət, müjərrədlik hökm sürür, zaman keçdikjə bu bədbinlik mübariz ovqata, inqilabçılığa keçir. H.Javidin azadlıq mövzusuna həsr etdiyi əsərlərdən biri də «Maral» fajiəsidir. Əsərdə feodal-patriarxal jəmiyyətin qoyduğu qanunlar, Şərqin geridə qalmış adət-ənənələri, əsasən də, qadın hüquqsuzluğu tənqid olunur, qadın azadlığı məsələsi əsərin əsas ideyası kimi təqdim edilir. Əsərdə əsas tənqid hədəfi qadın azadlığının qatı düşmənləri olan turxan bəylər, qazılar dünyasıdır. Ədib mövjud quruluşa qarşı yeni nəslin nümayəndələri olan Nadir bəy, Jəmil və Humayı yaradır. Lakin bu surətlər jəmiyyət qanunlarına boyun əyməsələr də, mübarizə aparmaq səviyyəsinə yüksələ bilmirlər. Sonda mövjud ijtimai quruluş Maralı məhv edir. Tədqiqatçı fikrini belə bitirir: Maralı məhv edən əsas səbəb onun arzuları ilə jəmiyyət arasında olan ziddiyyətlərin kəskinliyi və barışmazlığıdır. Və bu məqam L. Tolstoyun «Anna Karenina» əsəri ilə müqayisə edilir, jəmiyyət qanunlarına tabe olmayan Annanın fajiəsi Maralın taleyi ilə oxşar təqdim edilir. Əsərdə

qadın azadlığı bədii həllini tapa bilməsə də, jəmiyyət qanunlarına qarşı qaldırılan azadlıq bayrağı ədibin böyük jəsarəti kimi dəyərləndirilir.

«Şeyda» dramında isə böyük inqilabın kiçik bir hissəsi əks etdirilir. Söz, vijdan, şəxsiyyət azadlığı məsələsi qoyulur. Lakin Şeyda realizmin astanasında dayansa da, sonda romantik obraz olaraq qalır. Romantik sənətkarın inqilabın sonunda dayanan azad jəmiyyəti göstərə bilməməsini tədqiqatçı romantizmin xüsusiyyəti ilə izah edir.

«Şeyx Sənan» əsərində ədib vahid din ideyası ilə yanaşı, insan, şəxsiyyət, məhəbbət azadlığı məsələsinə də toxunur. «İblis» əsərində isə ədib bədii yaradıjılığa daha bir mövzu – müharibə mövzusu ilə gəlir. Yeni bir əsarət dalğası ədibin azadlıq dünyasına hakim kəsilir. Ən dəhşətlisi isə odur ki, insan mənəviyyatı özü iblisin əsarətindədir. Həqiqi azadlığa qovuşmaq üçün insan ilk önjə daxilindəki iblisdən xilas olmalıdır.

Bolşevik hakimiyyətinin «azadlıq, bərabərlik» şüarı ilə Qafqazı işğal etməsi Hüseyn Javidin azadlıq yanğısını daha da alovlandırır. O, sosialist inqilabının əsl simasını göstərərək proletar inqilabının xilaskar rolunu inkar edir və mövjud quruluşun iç üzünü açmağa çalışır.

«Knyaz» fajiəsi də bu dövrün məhsulu idi. H. Javid Knyaz və onun ailəsinin fiziki və mənəvi məhvini göstərməklə istismarın, əsarətin daha bir üzünü göstərməyə çalışır. Tədqiqatçı özündən əvvəlki tədqiqatlardan fərqli olaraq ədibin Knyazın fajiəsinə təəssüfünü göstərməyə çalışır. Əsərin sonunda Knyaz öz məqsədi uğrunda vuruşan bir mübariz deyil, özünü və Casmeni öldürməklə nətijələnən məğlub kimi təqdim edilir. Bununla da ədib zadəgan sinfinin ajizliyini nümayiş etdirir.

H.Javidin azad jəmiyyət arzuları sərhəddini genişləndirərək bəşəriləşir. O, dünyanın hər yerində əzab çəkən insanların taleyi ilə maraqlanır, istibdadın kökünü axtarmaq məqsədilə Azərin obrazında səyahətə çıxır. Tədqiqatçı, Hüseyn Javidin azad jəmiyyət romantizmini utopik jəmiyyətlə müqayisə edir. Azərin azadlıq axtarışlarının romantizmdən qidalandığını söyləyir. Lakin bəzi məqamlarda romantik xəyallar öz yerini real həqiqətlərə verir. Azər açıq mübarizə aparmağı təbliğ edir. Bu məqamda ədibin azadlıq axtarışları öz orbitindən çıxıb reallığa tərəf istiqamət götürsə də, realizm romantizmin köməyi olmadan azad jəmiyyət ideyalarını gerçəkləşdirə bilmir.

Tədqiqatda aparılan təhlillərdən gəlinən qənaətlər dissertasiyanın «**Nətijə**» hissəsində aşağıdakı kimi ümumiləşdirilmişdir:

1. Hüseyn Javidin keçdiyi yaradıjılıq yolu üç müxtəlif, çətin ijtimai-siyasi şəraiti olan dövrə təsadüf etdiyindən yaratdığı əsərlər təzadlı və ziddiyyətli ideyaları ilə ədəbi tənqidin diqqətini hər zaman jəlb etmişdir. Bu isə şairin yaradıjılığı ətrafında müxtəlif polemikaların yaranmasına gətirib çıxarmışdır.

2. Romantik əsərə tarixi şəxsiyyətin gəlişinin əsas məqsədi türk dünyasının şanlı zəfər tarixini yada salmaq, vahid Türk dünyası yaratmaqdan ibarət idi. Çünki ədib millətlərin, xalqların və jəmiyyətlərin hərəkətlərini koordinasiya etməsi üçün onların öz tarixini və bir-birini öyrənməsini vajib hesab edir. Böyük türk dövlət xadiminin özünüdərki türkün buraxdığı səhvləri ajı bir etirafa çevirir və bu ideya ilə ədibin həqiqi məqsədi aşkarlanır. Ortaq türk dəyərlərinin qorunması ideyası ön plana çəkilir.

3. Tarixi əsərlərə mürajiətlə ədib tarixi obrazlarla yeni quruluşun eybəjərliklərinə qarşı dayana biləjək fədakarlar ordusu yaratmağa çalışır. Əmir Teymur, Məhəmməd, Peyğəmbər, Xəyyam gənj nəslə örnək kimi təqdim edilir.

4. Şərqlə Qərb arasında gedən soyuq müharibə həmişə romantikləri, o jümlədən Şərq ziyalılarını çox düşündürmüşdür. Hüseyn Javid də romantik əqidəsinə sadiq qalaraq Şərqin düşdüyü böhranlı vəziyyətin səbəblərini araşdırmağa çalışmış, bir çox əsərində («Uçurum», «Maral», «İblis», «Azər», «Knyaz») bu məsələyə toxunmuşdur.

Anjaq ədib heç də Qərbə rəqib mövqedən çıxış etmir, əksinə Avropayla inteqrasiyaya üstünlük verir, lakin oranı kor-koranə təqlid etmək deyil, yalnız müsbət jəhətləri mənimsəməyi təbliğ edir.

5. «Azər» poemasında sənətkar daha qlobal problemə toxunur: Qərb və Şərq qarşıdurması yalnız əzən siniflərin mənafeyinə xidmət edir, nətijədə əzilənlər ordusu yaranır ki, onların tökülən qanlarının hesabına «tülkü siyasətçilərin» kapitalı artır. Bu jinayətlərin qarşısını almaq üçün Şərq və Qərb məzlumlarının birliyi və ədalət mübarizəsinin vajibliyi önə çəkilir.

6. Azadlıq ideyası romantiklərin əsas tədqiqat obyektlərindən biri olmuşdur. Onlar şəxsiyyət azadlığını ijtimai azadlığın təməli hesab etmişlər. Bu mövzu Hüseyn Javid yaradıjılığının da ana xəttini təşkil etmiş, əsərlərində söz, şəxsiyyət, din, məhəbbət azadlığı bir-birini əvəz etmiş, nətijədə bəşəri azadlığa çevrilmişdir.

Dissertasiyanın əsas müddəaları müəllifin aşağıdakı məqalələrində öz əksini tapmışdır:

1. Hüseyn Javid dramaturgiyasında tarixi şəxsiyyət və ədəbi qəhrəman // Elmi axtarışlar, XIII toplu, Bakı, «Səda», 2005.. - s.132 – 140

2. Azad jəmiyyətin romantik dərki. Filologiya məsələləri, №4, .Bakı: 2008. s.325 –337
3. Lirik-romantik düşünjədə fərd və zaman. Dil və Ədəbiyyat, Beynəlxalq Elmi-Nəzəri Curnal, 5 (59). Bakı: 2007. s. 112 –114
4. Hüseyn Javid və din. Dil və Ədəbiyyat, Beynəlxalq Elmi-Nəzəri Curnal, 5 (59). Bakı: 2007. s. 131 –134
5. Hüseyn Javid və tarix// Ekologiya, Fəlsəfə, Mədəniyyət. Elmi məqalələr məjmuəsi. 37-ji buraxılış, Bakı: 2004. s.135 –142
6. Poiski romantiçeskoy svobodı v proizvedeniəx Quseyn Dcavida // Aktualğnıe problemı qumanitarnıx i estestvennıx nauk.Curnal nauçnıx publikaüiy, Moskva: 2010. str. 213- 217
7. Quseyn Dcavid i romantiçeskaə svoboda //Aktualğnıe voprosı teorii i praktiki filoloqiçeskix issledovaniy. Materialı mecdunarodnoy nauçno-praktiçeskoy konferenüii, 25-26 marta, Moskv: 2011, str. 348-353
8. Tema svobodı v tvorçestve Quseyna Dcavida // Uçenıe zapiski Tavriçeskoqo Naüionalğnoqo Universiteta imeni V.İ. Vernadskoqo. Tom.26 (65), №1, ç,1, Simferopolğ, 2013, str 335-340.

Mammadova Sahiba Khasay k□z□

# THE HISTORY AND MODERNITY IN HUSSEIN JAVID'S CREARION

## SUMMARY

A lot of theoretical researches have been conducted on different directions about Hussein Javid,one of the most prominent representatives of romanticism in the history of Azerbaijani literature.The reason for that was the specificity of his art and the originality of thinking which was always of a great interest in literature.

In the thesis, Hussein Javid is shown as a literary innovator, a poet, and a dramatist.Issues like the individual and time, literary hero and his prototypes, the place and religion of historical person in romantic work are brought to light, and his thoughts on the history and memory of specific literary examples are presented in accordance with art.

Hussein Javid`s creative attitude to historical realities is brought to light as well as his attitude to history and innovative thinking.At the same time the historical and cultural importance of Hussein Javid`s work in Soviet Union is emphasized.

During the clarification of Huseyn Javid's quest for modernity in poetry and dramaturgy, first of all, the author`s attitude towards a global problem like the East-West confrontation is highlighted. In this context his thoughts of man and the world, is shown not only for his own work, but also as an integral part of the national public opinion and cultural development.

In the thesis the issue of a modern hero and concerns of public life is touched upon and in this case the historical and comparative analysis is widespread.In the writer`s work admiration of romantic society is explored and Hussein Javid`s ideas of a free-society are explained.The signs of realism is shown in the writer`s romantic search for freedom.

Mamedova Saxiba Xasay kızı

# İSTORİƏ İ SOVREMENNOSTĞ V TVORÇESTVE QUSEYNA DCAVİDA

## REZÖME

Svoeobrazie iskusstva i oriqinalğnostğ mışleniə samoqo ərkoqo predstavitelə romantizma v istorii azerbaydcanskoy literaturı Quseyna Dcavida vseqda bıli interesnı literaturovedeniö, i pogtomu provodilisğ raznoobraznıe nauçno-teoretiçeskie issledovaniə, posvəhennıe eqo trudam.

V dissertaüii pokazıvaetsə prixod Quseyna Dcavida v azerbaydcanskuö literaturu kak pogta-novatora, dramaturqa, privnositsə əsnostğ v takie problemı, kak liçnostğ i vremə, literaturnıy qeroy i eqo prototipı, mesto istoriçeskoy liçnosti v romantiçeskix proizvedeniəx, reliqiə, eqo mısli ob istorii i paməti predostavləötsə na osnove konkretnıx xudocestvenno-literaturnıx primerov.

V nauçno-issledovatelğskoy rabote narədu s interpretaüiey tvorçeskoqo otnoşeniə Quseyna Dcavida k istoriçeskoy pravde osvehaetsə eqo toçka zreniə otnositelğno istorii, novizna mısli pogta, vınesennıe iz istorii, vıdviqaetsə na peredniy plan. V to ce vremə issleduetsə obhestvenno- kulğturnoe znaçenie tvorçestva Quseyna Dcavida v sovetskoe vremə.

Vıəsnəə poiski sovremennosti v pogzii i dramaturqii Quseyna Dcavida, na peredniy plan vıstupaet, precde vseqo otnoşenie pogta k takoy qlobalğnoy probleme kak protivostoənie Vostoka i Zapada, i v gtom kontekste mısli o çeloveke i mire vıstupaöt ne tolğko kak çastğ eqo tvorçestva, no i kak çastğ naüionalğno-obhestvennoy mısli.

V dissertaüii avtor kasaetsə problemı sovremennoqo qeroə i obhestvennoy cizni, v gto vremə otvoditsə bolğşoe mesto dlə istoriko-sravnitelğnomu analizi. V tvorçestve Quseyna Dcavida vosxvaləetsə ideə «svobodnoqo obhestva». V poiskax dramaturqom romantiçeskoy svobodı skazıvaötsə sledı realizma.

**NAÜİONALĞNAƏ AКADEMİƏ NAUК AZERBAYDCANA**
**İNSTİTUT LİTERATURI im. NİZAMİ**

*Na pravax rukopisi*

**SAXİBA XASAY kızı MAMEDOVA**

# İSTORİZM İ SOVREMENNOSTĞ V TVORÇESTVE QUSEYNA DCAVİDA

5716.01. – Azerbaydcanskaə literatura

**A V T O R E F E R A T**

dissertaüii na soiskanie nauçnoy stepeni
doktora filosofii po filoloqii

**BAКU-2013**